AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 21.10.2015 |
| Qeydiyyat nömrəsi | 57 |
| Adı | "Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları"nın təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 06.11.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 220.050.020 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201510210057 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 05.11.2015 |

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanının 2.2-ci bəndinin icrası məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini və 19-cu hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

qərara alır:

1. "Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Respublikanın tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, bu əmrlə təsdiq edilmiş qaydalara riayət edilməsi təmin edilsin.

3. Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən E.Əzizova tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 21.12.2009-cu il tarixli 172 nömrəli əmri ləğv edilsin.

5. Qərarın icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

Kollegiyanın sədri, Nazir — Oqtay Şirəliyev

Kollegiyanın məsul katibi — Nərgiz Şahbazova

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 21 oktyabr 2015-ci il tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 13.5-ci maddəsinə əsasən hazırlanmışdır və resept əsasında buraxılan dərman vasitələrinə reseptlərin yazılmasına və aptek təşkilatlarından buraxılmasına dair tələbləri müəyyən edir.

1.2. Həkim resepti əsasında buraxılan dərman vasitələrinin reseptsiz buraxılması qadağandır. Resept əsasında yalnız Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış dərman vasitələri buraxılır. Bu tələb dövlət qeydiyyatından keçmiş dərman vasitələri əsasında həkim resepti üzrə aptek təşkilatlarında hazırlanan dərman vasitələrinə şamil edilmir.

1.3. Bu qaydaların tələblərinə uyğun olmayan reseptlər etibarsız sayılır və onlar üzrə aptek təşkilatlarından dərman vasitələri buraxılmır.

1.4. Dövriyyəsinə nəzarət edilən narkotik tərkibli dərman preparatlarına və psixotrop maddələrə tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2003-cü il tarixli 57 nömrəli qərarı ilə müəyyən edilir.

## 2. Dərman vasitələrinə reseptlərin yazılması

2.1. Reseptlər təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün tibb müəssisələrində çalışan, həmçinin özəl tibbi praktika ilə məşğul olan resept yazmaq hüququna malik tibb işçiləri (həkim və tibb məntəqələrinin feldşerləri) tərəfindən tibbi göstərişlər əsasında yazılır.

2.2. Dərman vasitələrinə reseptlər bu qaydalara əlavə olunan "Resept blankı forması"nda (1 nömrəli əlavə) və "Ödənişsiz resept blankı forması"nda (2 nömrəli əlavə), optik ləvazimatlara isə "Optik ləvazimatlara resept blankı forması"nda (3 nömrəli əlavə) yazılır.

2.3. Resept dərman vasitələrinin beynəlxalq patentləşdirilməmiş adı, buraxılış forması, dozası və istifadə qaydaları qeyd olunmaqla yazılır. Təyin edilmiş dərman vasitəsinin beynəlxalq patentləşdirilməmiş adının olmadığı hallarda (3 və daha artıq tərkibli, bioloji oxşar dərman vasitələri qrupuna aid olduqda) resept blankında onun ticarət adı yazılır. Resept blanklarında hər hansı düzəlişə yol verilmir.

2.4. Dərman vasitələrinin tərkib hissələri resept blankında latın və ya ingilis dillərində, dərman forması, hazırlanması və müvafiq buraxılış qaydaları latın dilində, reseptin siqnatura hissəsi (dərmanın istifadə edilmə qaydası) isə azərbaycan dilində yazılmalıdır.

2.5. Ambulator şəraitdə müalicə alan xəstələrə resept blankında yazılmış dərman vasitəsi haqqında məlumatlar ambulator xəstənin tibbi kartasında və elektron sağlamlıq kartında qeyd edilir.

2.6. Stasionar şəraitdə müalicə alan xəstələrə dərman vasitələri tibb müəssisəsinə ayrılan dərman vasitələrinin siyahısına uyğun olaraq resept yazmadan təyin edilir.

2.7. Tibb müəssisəsinə ayrılan dərman vasitələrinin siyahısında olmayan dərman vasitəsinin xəstəyə təyin olunmasına tibbi göstəriş olduqda müalicə həkiminə dərman təyinatını tibb müəssisəsinin rəhbəri və ya onun bu məqsədlə təyin etdiyi məsul şəxslə, təcili-təxirəsalınmaz hallar zamanı isə cavabdeh növbətçi həkim ilə razılaşdırmaqla reseptin yazılmasına icazə verilir.

2.8. Bu qaydaların 2.6-cı və 2.7-ci bəndlərinə uyğun olaraq xəstəyə təyin olunmuş dərman vasitələri barədə məlumat xəstəlik tarixinə və təyinat vərəqəsinə qeyd olunur.

2.9. Dərman vasitələrinin ödənişsiz alınması üçün nəzərdə tutulan reseptlər yalnız dövlət müalicə-profilaktika müəssisələrinin həkimləri tərəfindən, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş siyahıya uyğun yazılır.

2.10. Ödənişsiz şərtlərlə dərman almaq hüququna malik olan şəxslərə dərman preparatı yazmaq üçün istifadə olunan ödənişsiz resept blanklarının bu qaydalara əlavə olunan forma (4 nömrəli əlavə) üzrə qeydiyyatı aparılır.

## 3. Dərman vasitələrinin apteklərdən buraxılması

3.1. Dərman vasitələri yalnız aptek təşkilatları tərəfindən buraxılır.

3.2. Ödənişsiz dərman vasitələrinin buraxılışı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və ya onun yerli idarə və müəssisələri tərəfindən müəyyən olunmuş aptek təşkilatlarından həyata keçirilir.

3.3. Ödənişsiz dərman vasitələri buraxılarkən onlara yazılan resept blankının əsas hissəsi aptek təşkilatında qalır, kötük hissəsi isə alıcıya verilir.

3.4. Dərman vasitələrinə yazılan reseptlərin etibarlılıq müddəti 90 (doxsan) gün, ödənişsiz dərman vasitələrinə isə 30 (otuz) gündür.

3.5. Aptek təşkilatlarında ödənişsiz reseptin əsas hissəsi 3 il ərzində saxlanılmalıdır. Saxlanılma müddəti bitən reseptin əsas hissələri arxivləşdirilir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 21 oktyabr 2015-ci il tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmiş "Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları"na

1 nömrəli əlavə

Resept blankının forması

RESEPT BLANKI

_______________________________________________
(tibb müəssisəsinin adı)

_____/______/______
gün ay il

________________________________/_____________
(xəstənin S.A.A.) (yaşı)

________________________________/_____________
(həkimin S.A.A.) (telefon nömrəsi)

Rp.:

Həkimin imzası və şəxsi möhürü ____________________

Tibb müəssisəsi rəhbərinin imzası və müəssisənin möhürü ____________________
(stasionar xəstələr və ya psixotrop dərmanlar üçün yazıldıqda)

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 21 oktyabr 2015-ci il tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmiş “Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları”na

2 nömrəli əlavə

Ödənişsiz resept blankının forması

ÖDƏNİŞSİZ RESEPT BLANKI № 0000000

Tarix __________Tibb müəssisəsi____________________________

Xəstənin A.S.A.___________________________________________

Rp.:

______________________          ____________________

Baş həkim (müavin)          Həkim

(imza və möhür)          (imza və möhür)

Dərmanı aldım ___________________________________________

Xəstənin soyadı

Telefonu _________________          ______________________

İmzası

- - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - -

*(kəsilmə xətti)*

№ 0000000

Tarix ___________________

Tibb müəssisəsi___________________________________________

Xəstənin A.S.A.___________________________________________

Rp.:

_________________________________________________________

Həkim (imza və möhür)

Qeyd: resept blankında 1 dərman vasitəsinin adı qeyd olunur

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 21 oktyabr 2015-ci il tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmiş "Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları"na

3 nömrəli əlavə

Optik ləvazimatlara resept blankı forması

"____" ____________200 ____il

*(reseptin yazılma tarixi)*

RP: OD Sph_____cyl______ax_____

OS Sph_____cyl______ax_____

Dp=_______mm.




DS: uzağı görmək, oxumaq, daimi gəzdirmək, kompüter işığından qorunmaq üçün, antiblik, fotoxrom eynək (25%, 50%, 75%)

Tibb müəssisəsinin adı ____________________________________________

Qeyd ________________________________________________________

Kimə:_________________________________________________________

Yaşı:__________________________________________________________

Həkim:____________________________________tel:___________________

Həkimin imzası ___________________
və şəxsi möhürü

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 21 oktyabr 2015-ci il tarixli 57 nömrəli qərarı ilə təsdiq edilmiş "Aptek təşkilatlarından dərman vasitələrinin buraxılması Qaydaları"na

4 nömrəli əlavə

Ödənişsiz buraxılan dərmanlar üçün reseptlərin qeydiyyat jurnalı

| S/N | Tarix | Reseptin nömrəsi | Resept blankı alan tibb işçisinin S.A.A imzası |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |